# Qarabağ Universitetində vakansiya – ictimaiyyətlə əlaqələr üzrə mütəxəssis

**İşəgötürən:** "Qarabağ Universiteti" publik hüquqi şəxs

İşğaldan azad edilmiş ərazilərin iqtisadi potensialı, aparılan bərpa-quruculuq işləri, eləcə də əmək bazarının tələbləri nəzərə alınaraq regionun sosial-iqtisadi ehtiyaclarına uyğun yüksəkixtisaslı kadr tələbatının ödənilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 noyabr tarixli Sərəncamı ilə Qarabağ Universiteti yaradılıb.

Universitet Xankəndi şəhərində fəaliyyət göstərəcək.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 6 fevral 2024-cü il tarixli 73 nömrəli Qərarı ilə təsdiq olunmuş "Qarabağ Universitetinin Nizamnaməsi"nə əsasən, ali təhsilin bütün səviyyələri üzrə genişprofilli mütəxəssis və yüksəkixtisaslı elmi kadrların hazırlanması, eləcə də orta ixtisas və əlavə təhsil proqramlarının həyata keçirilməsi, elmin müxtəlif sahələri ilə bağlı tədqiqatların aparılması universitetin fəaliyyət istiqamətlərinə daxil edilib.

Qarabağ Universiteti fəaliyyətinin beynəlxalq standartlara uyğun təşkili, eləcə də təhsilalanların yüksəksəviyyəli bilik və bacarıqlarla təmin olunması məqsədilə yüksəkixtisaslı peşəkar kadrlar üçün vakansiya elan edir.

İctimaiyyətlə əlaqələr şöbəsinin məqsədi universitetin ictimai nüfuzunu yüksəltmək, onun missiya və dəyərlərini ictimaiyyətə, media qurumlarına, eləcə də digər tərəfdaşlara effektiv şəkildə çatdırmaq, həmçinin universitetin fəaliyyət və nailiyyətləri haqqında məlumatların düzgün, vaxtında yayılmasını təmin etməkdir.

**Vəzifə:** ictimaiyyətlə əlaqələr üzrə mütəxəssis

**İşin təsviri:**
- şöbə müdirinin rəhbərliyi altında universitetin ictimaiyyətlə əlaqələr üzrə fəaliyyətlərinin hazırlanması və həyata keçirilməsinə dəstək;
- mətbuat konfransı, brifinq, eləcə də digər tədbirləri təşkil və koordinasiya etmək;
- kommunikasiya üçün nəzərdə tutulmuş çıxış, məqalə, press-reliz və digər sənədləri hazırlamaq;
- media, dövlət qurumları və tərəfdaşlarla əlaqələrin qurulmasında iştirak;
- mətbuatı gündəlik olaraq izləmək;
- mətbuat və ictimai sorğuları cavablandırmaq və ya müvafiq şəxsə yönləndirmək;
- mətnlərin KİV-də və universitetin sosial media hesablarında yerləşdirilməsinə nəzarət, media hesabatlarının hazırlanmasında iştirak;
- digər inzibati tapşırıqların icrası.

**Tələblər:**
- ictimaiyyətlə əlaqələr, jurnalistika, marketinq və ya müvafiq sahə üzrə bakalavr təhsili;
- ictimaiyyətlə əlaqələr və ya kommunikasiya sahəsində minimum 3 il təcrübə (sözügedən təcrübənin ali təhsil müəssisələrində olması üstünlükdür);
- yerli media ilə yaxından tanışlıq;
- effektiv ünsiyyət və təşkilati bacarıqlar;
- Azərbaycan dilində səlis danışıq qabiliyyəti (ingilis dili biliyi üstünlükdür);
- rəqəmsal kommunikasiya alətləri və platformalarından istifadə bacarıqları;
- operativlik, dəqiqlik və yüksək icraçılıq bacarığı;
- tədqiqat və analitik təhlil bacarığı.

**Tələb olunan sənədlər:**
- tərcümeyi-hal;
- CV;
- ali təhsili təsdiq edən sənədlərin surəti;
- tövsiyə edən şəxslər barədə məlumat (2 nəfər).

*Qeyd: universitetdə daimi əsaslarla çalışan əməkdaşlar Xankəndi şəhərində tədris ilinin əvvəlindən başlayaraq işlədikləri müddətdə mənzillə təmin olunacaqlar.*

**Rəqabətədavamlı əməkhaqqı təklif olunur.**

**Müraciət üçün son tarix: 15 iyun 2024-cü il**

*Müraciət üçün qeyd edilən tarixədək lazımi sənədləri **karabakh@edu.gov.az** elektron poçt ünvanına başlıqda "İctimaiyyətlə əlaqələr üzrə mütəxəssis" yazmaqla göndərməyiniz xahiş olunur.*